

LAYİHƏ

## Qeyri-neft sektoru diqqət mərkəzindədir

SƏH. 2



VERGİ

## Vergilər Nazirliyində görüş keçirilib

SƏH. 3



EKO

## İNNOVASİYA

SƏH. 7

iqtisadi qüdrətimiz naminə!

# iQTİSADİYYAT

www.iqtisadiyyat.com

№ 10 (905)
11 - 17 mart
2016-cı il

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

# Əsas məqsədimiz ölkəmizin uğurlu inkişafını təmin etməkdir

**Martın 10-da Azərbaycanın paytaxtında "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Bakı Forumunun rəsmi açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, bir sıra ölkələrin dövlət və hökumət başçıları Forumda iştirak ediblər.**



Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən IV Qlobal Bakı Forumunda bu dəfə münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunması kimi mühüm məsələlər müzakirə edilir. Bundan başqa, enerji və qlobal idarəçiliyin perspektivləri ilə bağlı məsələlər də Forumun gündəliyinə daxildir.

Albaniya, Monteneqro, Bolqarıstan, Gürcüstan prezidentlərinin də qatıldığı Forumda 27 sabiq prezident və 23 sabiq baş nazir də daxil olmaqla, 53 ölkədən 300-dən çox nümayəndə iştirak edir.

Dördüncü Qlobal Bakı Forumunu açan Misirin İsgəndəriyyə Kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin hazırda dünyanı narahat edən məsələlərin çoxşaxəli olduğunu dedi, bu problemlərin aradan qaldırılması üçün müzakirələrin aparılmasının vacibliyini diqqətə çatdırdı. O, IV Qlobal Bakı Forumunun bu baxımdan xüsusi əhəmiyyətə malik olduğunu vurğuladı və bu cür mötəbər tədbirə ev sahibliyi etdiyinə görə Azərbaycana minnətdarlığını bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi bu Forumun dünyada baş verən mühüm və qlobal məsələlərin müzakirəsi baxımından artıq ənənəyə çevrildiyini bildirdi. Dövlətimizin başçısı ötənilki görüşdən sonra dünyada bir çox dəyişikliklərin baş verdiyini dedi, bu tədbirin məqsədlərindən birinin də planetdə gərginliyin azaldılması, əməkdaşlıq və qarşılıqlı anlaşma üçün əsasların yaradılması olduğunu diqqətə çatdırdı.

Bu il ölkəmizin müstəqilliyinin 25 illiyini qeyd edəcəyini deyən Prezident İlham Əliyev ötən dövrdə Azərbaycanın bir çox problemlərlə üzləşdiyini, terror və müharibəyə məruz qaldığını vurğuladı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin vacibliyini bildirən dövlətimizin başçısı diqqətə çatdırdı ki, Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır və bütün beynəlxalq qurumlar Dağlıq Qarabağı ölkəmizin ərazisi kimi tanıyır. BMT Təhlükəsizlik Şurasının erməni qüvvələrinin işğal edilmiş ərazilərdən çıxması ilə bağlı qətnamələrinin hələ də həyata keçmədiyini deyən Prezident İlham Əliyev BMT qətnamələrinin icra mexanizminin yenidən işlənməsinin vacibliyinə diqqəti cəlb etdi.

"Ermənistan sülh istəmir və status-kvonun dəyişməməsinə çalışır", - deyən dövlətimizin başçısı işğal olunmuş ərazilərdə hər şeyin məhv edildiyini, tarixi abidələrin, qəbiristanlıqların dağıdıldığını bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, işğalçı cəzalandırılmalıdır, əks halda o, planlarını davam etdirəcək və təhlükə də daim mövcud olacaq.

Azərbaycanda bütün azadlıqların təmin olunduğunu, iqtisadiyyatın inkişaf etdiyini, yoxsulluğun azaldıldığını, sosial və infrastruktur layihələrinin icra olunduğunu deyən dövlətimizin başçısı ölkəmizdə sərmayələr üçün münbit şəraitin yaradıldığını, iqtisadi islahatların uğurla aparıldığını diqqətə çatdırdı. İndi əsas məqsədin iqtisadiyyatda neft və qazdan asılılığın azaldılması olduğunu deyən Prezident İlham Əliyev hazırda nəqliyyat infrastrukturunun yaradılması, enerji sektorunun daha da inkişaf etdirilməsi istiqamətində işlərin getdiyini vurğuladı, "Cənub" qaz dəhlizinin əhəmiyyətindən danışdı, bu layihənin reallaşmasında Azərbaycanın mühüm rolunun olduğunu bildirdi.

Bu il ölkəmizdə "Multikulturalizm ili" elan edildiyini deyən dövlətimizin başçısı müstəqillik illərində bu meyilin daha da möhkəmləndiyini və dövlət siyasətinə çevrildiyini bildirdi. Ötən il Bakıda birinci Avropa Oyunlarının keçirildiyini, gələn il isə İslam Həmrəylik Oyunlarının baş tutacağını deyən dövlətimizin başçısı bildirdi ki, bizim əsas məqsədimiz ölkəmizin uğurlu inkişafını təmin etməkdir.

* * *

Sonra forumda Bolqarıstan Prezidenti Rosen Plevneliyev, Albaniya Prezidenti Buyar Nişani, Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili çıxış etdilər.

Forum öz işini davam etdirir.

# Azərbaycan ilə Macarıstan arasında ikitərəfli münasibətləri dinamiklik və qarşılıqlı anlaşma fərqləndirir



Martın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə rəsmi səfərdə olan Macarıstanın Baş naziri Viktor Orban ilə təkbətək görüşü olub.

Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib. Azərbaycan-Macarıstan əlaqələrinin genişləndirilməsi baxımından bu səfərin əhəmiyyəti qeyd olunub. İkitərəfli əlaqələrimizin müxtəlif sahələrdə inkişafı üçün yaxşı potensialın olduğu vurğulanıb, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Martın 6-da təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstanın Baş naziri Viktor Orbanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib.

Prezident İlham ƏLİYEV Macarıstanın Baş naziri Viktor Orbanın respublikamıza rəsmi səfərinin ikitərəfli münasibətlərin daha da inkişafı baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Dövlətimizin başçısı bildirib ki, ölkələrimiz münasibətləri bütün istiqamətlərdə daha da genişləndirmək niyyətindədirlər. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan ilə Macarıstan arasında ikitərəfli münasibətləri dinamiklik və qarşılıqlı anlaşma fərqləndirir, Baş nazir Viktor Orbanın respublikamıza rəsmi səfəri ölkələrimiz arasında siyasi əlaqələri daha da möhkəmləndirəcək. Dövlətimizin başçısı ölkələrimizin işgüzar dairələrinin daha fəal çalışacaqlarına ümidvar olduğunu bildirib.

Dövlətimizin başçısı əminliyini bildirib ki, səfərin yekunlarına görə iqtisadiyyat və biznesdə əməkdaşlıq potensialını daha da artırmaq məqsədilə müvafiq qurumlara yeni tapşırıqlar veriləcək. İqtisadi sahədə bütün səyləri əlaqələndirən Hökumətlərarası Komissiyanın uğurlu fəaliyyətini qeyd edən Prezident İlham Əliyev Baş nazir Viktor Orbanın rəsmi səfərinin ölkələrimizi daha da yaxınlaşdıracağına və çox yaxşı nəticələrə təkan verəcəyinə əminliyini vurğulayıb.

Görüşdə, həmçinin nəqliyyat, energetika, kənd təsərrüfatı, su təchizatı, informasiya-kommunikasiya texnologiyaları, şəhər təsərrüfatı və infrastruktur sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

* * *

Martın 6-da Macarıstanın Baş naziri Viktor Orbanın ölkəmizə rəsmi səfəri çərçivəsində Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın "Macarıstanın Xidmətlərə görə Komandor Xaçı" ordeni ilə təltif olunması mərasimi keçirilib.

Baş nazir Viktor Orban Macarıstanın ali ordenini Mehriban Əliyevaya təqdim etmişdir.

* * *

Martın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban mətbuata bəyanatlarla çıxış ediblər.

**Bioloji Təbabət Klinikası**
**Almaniya - Azərbaycan**




**Üstünlükləri:**

- Özünübərpa və müdafiə mexanizmlərinin pozulmuş funksiyalarının bərpası
- Xəstəliyin deyil xəstənin müalicəsi
- Yalnız təbii tərkibli potensiyalaşdırılmış dərman preparatlarından istifadə

**MÜAYİNƏLƏR:**

- Avtomatlaşdırılmış müasir laboratoriya vasitəsilə biokimyəvi, hematoloji, kliniki analizlər
- Çoxfunksiyalı, məsafədən idarə olunan rəqəmsal rentgen vasitəsilə onurğa, sümük- oynaq xəstəliklərinin müayinəsi
- Qaranlıq sahəli mikroskop vasitəsilə qanın funksional və keyfiyyət analizi
- 4D rejimli USM aparatı vasitəsilə ginekoloji, baş- beyin və qarın boşluğunun müayinəsi
- KT (kompüter tomoqrafiya)
- İkienerjili-rentgenoloji densitometr vasitəsilə sümük-oynaq xəstəliklərinin müayinəsi (osteoporozun erkən aşkarlanması)
- Videoendoskopiya (bronxoskopiya, qastroskopiya, kolonoskopiya, kolposkopiya)
- AFGEN Genetik diaqnostika mərkəzi (Türkiyənin Ege Universitetinin professoru Afiq bərdəlinin rəhbərliyi ilə fəaliyyət göstərən müasir laboratoriyada bütün növ genetik xəstəliklərin dəqiq analizləri aparılır)
- BRD (biorezonans diaqnostika)- vasitəsilə virus və qurd xəstəliklərinin müayinəsi və müalicəsi
- EEQ -beyin hüceyrələrinin aktivliyi öyrənilir
- PZR laboratoriya aparatı vasitəsilə dəqiq və keyfiyyətli analizlər
- Elektromioqrafiya – periferik sinir sistemi xəstəliklərinin diaqnostikası və oxşar xəstəliklərlə differensial diaqnostikası aparılır.

**MÜALİCƏLƏR:**

- Plazmaferez
- Homeosiniatriya
- Ozonoterapiya
- Hidrokolonoterapiya
- Drenaj terapiya
- İynəbatırma (akupunktura)
- Tibbi kosmetologiya
- Şərq təbabəti ilə müasir təbabətin sintezi Biopunktura
- Osteopatiya
- Manual terapiya
- Autohemoterapiya
- Hirudoterapiya

Müasir aparatura ilə təchiz olunmuş müasir fizioterapiya şöbəsində ESWT, WINPLATE, Lazer, Maqnit apparatlarıyla elektroterapiya, Reabilitasiya, Massaj, Kinezioterapiya müalicələri aparılır.

"BiolojiTəbabət"klinikası
**Ünvan:** 3-cü mkr. Pişəvari küç., 110
("Memar Əcəmi" metro stansiyasının yaxınlığı)
Telefon: (012) / (070) (050) / (055) **430 89 89**
e-mail:bioklinik@biolojitababat.az

# Qətər ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın səviyyəsini siyasi əməkdaşlıq səviyyəsinə qaldırmalıyıq



Martın 8-də Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani Azərbay-cana gəlmişdir. Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin geniş tərkibdə görüşü keçirilib.

Görüşdə Prezident İlham Əliyev demişdir: - İqtisadi əməkdaşlığımızın səviyyəsini siyasi əməkdaşlıq səviyyəsinə qaldırmalıyıq və hesab edirəm ki, bu sahədə çoxlu imkanlar mövcuddur. Bu gün imzalanacaq sənədlərdən biri xüsusilə bunun üçün yaxşı baza yaradacaq. Əminəm ki, birgə komissiyanın yaradılması ölkələrimiz arasında iqtisadi və ticari əməkdaşlığı artıracaq. Enerji əməkdaşlığı, turizm, kənd təsərrüfatı, texnologiyalar, daşımalar və investisiya qoyuluşu sahələrində yaxşı imkanlar görürük. Düşünürəm ki, bütün bu sahələr əməkdaşlıq üçün cəlbedicidir.

Ölkəniz dünyada çox dinamik, iqtisadi cəhətdən sabit və çiçəklənən bir ölkə kimi tanınır. Biz xalqlarımız arasında bu iqtisadi körpünü yaratmalıyıq. Hesab edirəm ki, yaxın gələcək üçün ən vacib hədəflərdən biri qarşılıqlı ticarət dövriyyəsinin səviyyəsinin artırılması olmalıdır və bunun üçün yaxşı imkanlar mövcuddur. Eyni zamanda, daha da çox sayda Qətər vətəndaşlarının Azərbaycana səfər etməsi bizi məmnun edir. Bildiyiniz kimi, indi sizin vətəndaşlarınız üçün sadələşdirilmiş viza rejimi tətbiq olunur və ziyarətçilərin sayı artmaqdadır. Bu da əlbəttə ki, xalqlar arasında əlaqələr üçün xüsusi fürsət yaradacaq. Birbaşa uçuşlarımız var, indi Azərbaycana çıxışınız daha da asanlaşıb. Bu da əlbəttə ki, turizmin inkişafına stimul verəcək və öz növbəsində xalqlarımız arasında daha da sıx münasibətlərin formalaşmasına gətirib çıxaracaq. Biz ölkələrimiz arasında bundan da sıx münasibətlərin formalaşmasını istəyirik.

Görüşdə həmçinin, energetika, sərmayə qoyuluşu, turizm, kənd təsərrüfatı sahələrində əməkdaşlığın inkişafı məsələləri müzakirə olunmuşdur.

* * *

Martın 8-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani ilə təkbətək görüşü olub.

Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin inkişafından məmnunluq ifadə edildi. İqtisadi əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı. Bu səfərin münasibətlərimizin daha da möhkəmlənməsinə töhfə verəcəyi diqqətə çatdırılmışdır.

* * *

Martın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin iştirakı ilə Azərbaycan-Qətər sənədlərinin imzalanması mərasimi olub.

# Azərbaycan Mərkəzi Bankı dövlət orqanı deyil, publik hüquqi şəxsdir




Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli Qanununun tətbiqi haqqında sərəncam imzalayıb.

Dəyişikliklərə əsasən, qanunun 2.1-ci maddəsində "dövlət orqanıdır" sözləri "publik hüquqi şəxsdir" sözləri ilə əvəz edilir. Bu maddədə dəyişikliklərdən əvvəl qeyd olunurdu: "Mərkəzi Bank dövlət orqanıdır, onun Azərbaycan Respublikasının Dövlət gerbi təsvir edilmiş və adı yazılmış möhürü vardır".

Qanunun 4.2-ci maddəsi aşağıdakı redaksiyada verilir:

"4.2. Mərkəzi Bankın fəaliyyətinin məqsədi, həmçinin banklararası mərkəzləşdirilmiş və digər lisenziyalaşdırılmayan ödəniş sistemlərinin təşkili və fəaliyyətinin təmin edilməsi, habelə bank sisteminin sabitliyinə dəstəyin göstərilməsindən ibarətdir.";

Həmçinin 44.3-cü maddə aşağıdakı redaksiyada verilir:

"44.3. Mərkəzi Bank yaratdığı banklararası mərkəzləşdirilmiş ödəniş və digər lisenziyalaşdırılmayan sistemlərində nağdsız hesablaşmaların aparılması qaydalarını və şərtlərini, habelə istifadə olunan ödəniş sənədlərinin forma və məzmununu müəyyən edir.".

49-cu maddə isə aşağıdakı redaksiyada verilir:

"Maddə 49. Sonuncu instansiya kreditoru.

Bankların ödəmə qabiliyyətinin qısamüddətli pozulması və likvidlik çatışmazlığı hallarında maliyyə bazarlarına nəzarət orqanı 6 (altı) aydan artıq olmayan müddətə kreditlərin verilməsi üçün Mərkəzi Banka müraciət edə bilər. Maliyyə bazarlarına nəzarət orqanının müraciəti əsasında Mərkəzi Bank 2 (iki) bank günündən gec olmayaraq kreditlərin verilib-verilməməsi barədə müvafiq qərar qəbul etməlidir.";

Bundan başqa, 51-ci maddə aşağıdakı redaksiyada verilir:

"Maddə 51. Beynəlxalq əməkdaşlıq

Mərkəzi Bank qanunla onun səlahiyyətlərinə aid edilmiş məsələlərlə əlaqədar beynəlxalq təşkilatlarla və xarici dövlətlərin müvafiq təşkilatları ilə əməkdaşlıq edə bilər.";

Bu qanun qüvvəyə mindiyi günədək Mərkəzi Bankın qəbul etmiş olduğu normativ xarakterli aktlar həmin aktlarla tənzimlənən məsələlərə dair normativ xarakterli aktlar qəbul etmək səlahiyyəti olan maliyyə bazarlarına nəzarət orqanının aktları qüvvəyə minənədək öz hüquqi qüvvəsini saxlayır.

KİVDF

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# Qeyri-neft sektoru diqqət mərkəzindədir




**Respublikamızda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün hər gün daha böyük işlər görülür, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən tədbirlər həyata keçirilir. Sahibkarların hərtərəfli inkişafına ölkə rəhbərliyinin də dəstəyi danılmazdır. Məhz bütün bunların nəticəsidir ki, hazırda ölkə iqtisadiyyatının inkişafında sahibkarlar çox mühüm rol oynayırlar.**

**Müasir dövrdə ölkədə iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafının təmin edilməsi, əhalinin sosial rifahının yüksəldilməsi, qeyri-neft sektorunun inkişafı və onun ixrac imkanlarının genişləndirilməsi qarşıda duran əsas vəzifələrdəndir. Sənaye parklarının yaradılması da bu istiqamətdə atılan mühüm addımlardandır.**

Hazırda neft-kimya sənayesi ölkə iqtisadiyyatının inkişafının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Mühəndis-quraşdırma, maşınqayırma, avtomobil, ərzaq və digər sənaye sahələrində texniki həllər və məhsul baxımından istehsal əlaqələrini təmin edən bu sektorun inkişafı məqsədilə neft və qaz ehtiyatları ilə zəngin olan ölkələr müvafiq istiqamətli sənaye obyektləri, həmçinin texnoparklar və sənaye parkları yaradırlar. Ölkəmizdə də bu sahənin inkişafına xüsusi diqqət göstərilir və bu məqsədlə yaradılan sahibkarlıq obyektlərindən biri də hər cür zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabət qabiliyyətli məhsullar istehsalı və xidmətlər göstərilməsi məqsədləri üçün istifadə edilən Sumqayıt Kimya Sənaye Parkıdır.

Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Sumqayıt Kimya Sənaye Parkının idarəedici təşkilatı Prezident İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə yaradılmış "Sumqayıt Kimya Sənaye Parkı" MMC-dir. Sumqayıt Kimya Sənaye Parkının fəaliyyətinin təşkili, parkda yerləşəcək istehsal sahələrinin qurulması üçün icazə sənədlərinin alınması, layihələrin hazırlanması, razılaşdırılması, infrastruktur təminatı və digər zəruri tədbirlərin həyata keçirilməsi "Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən aparılır.

**Sumqayıt Kimya Sənaye Parkının yaradılmasında əsas məqsəd ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaqdan ibarətdir.**

Yarandığı vaxt 167,66 hektar əraziyə malik olan Parka göstərilən maraq və gələcək perspektivlər nəzərə alınaraq sənaye parkına əlavə torpaq sahəsi ayrılmışdır. Hazırda nəhəng infrastruktura malik Sumqayıt Kimya Sənaye Parkının ümumi ərazisi 295,62 hektar təşkil edir. Paytaxt Bakıdan 32,5 km məsafədə yerləşən Parkın Baş Planına əsasən, buradakı Sənaye Zonasının ərazisinin 192 hektar olması nəzərdə tutulur. Burada aqro və tibb kimyası, məişət kimyası, tikinti sənayesi kimyası, elektronika və avtomobil sənayesi kimyası, polimerlər və sənaye avadanlıqlarının istehsalı məqsədilə 35-40 müəssisənin fəaliyyət göstərməsi də planlaşdırılır.

Müasir üslubda dizayn edilmiş və 21 hektar təşkil edəcək Sosial zonada Parkın rezidentləri üçün böyük imkanlar yaradılacaq. 16 mərtəbəli inzibati bina, Sərgi-Konfrans Kompleksi, "A" kateqoriyalı ofis sahələri, Peşə Təhsil Mərkəzi, Laboratoriya binası, emalatxanalar, Uşaq Baxım Mərkəzi ilə bərabər, burada açıq və qapalı idman meydançaları, Sağlamlıq Mərkəzi, Yataqxana Kompleksi, həmçinin rezidentlər və işçilərə xidmət edəcək digər obyektlər, "yaşıl zonalar", hətta qonaqlar üçün "VİP" butik otelin də fəaliyyəti nəzərdə tutulur. Ərazidə 24 saat mühafizə, yanğınsöndürmə və tibbi xidmət Sumqayıt Kimya Sənaye Parkının rezidentlərinə xidmət göstərəcəkdir.

Texniki infrastrukturun təchizatı nöqtəyi-nəzərindən Sumqayıt Kimya Sənaye Parkı tam fərqli və müasir yanaşma təklif edir. Potensial investorların biznesinin inkişafı, habelə kimya sənayesi üçün zəruri olan bütün enerji daşıyıcıları, o cümlədən elektrik enerjisi, təbii qaz, texniki və içməli su, kanalizasiya və tullantı suları xətləri və digər kommunikasiya xətləri yeraltı qalereya vasitəsilə "plug&play" sistemi əsasında rezidentlərə təqdim edilir. Yəni, sənaye parkının hər bir rezidenti zəruri olan infrastruktur şəbəkəsinə dərhal qoşulmaq imkanına malik olacaqdır.

Sumqayıt Kimya Sənaye Parkının Baş Planına əsasən, 2013-cü ildən ərazidə infrastruktur şəbəkəsinin yaradılması işlərinə başlanmış və hazırda bu istiqamətdə işlər davam etdirilir. Artıq Sumqayıt Kimya Sənaye Parkının yeraltı infrastruktur şəbəkəsinin tikintisi başa çatdırılıb. Belə ki, parkboyu ümumi uzunluğu 13,5 km yağış suyu, 10,8 km içməli su, 8 km texniki su şəbəkəsi, 20,6 km yanğına qarşı su, 11,7 km məişət tullantı suları və 9,3 km kimyəvi tullantı suları xəttləri çəkilmişdir.

Müasir sənaye parkları konsepsiyasına uyğun olaraq, Sumqayıt Kimya Sənaye Parkında kommunikasiya xətləri qalereyalar vasitəsi ilə çəkilir. Eni 3 metr, hündürlüyü isə 2,2 metr olan yeraltı qalereyaların ümumi uzunluğu 10,3 km təşkil edir.

**Sumqayıt Kimya Sənaye Parkının ərazisində fasiləsiz və sabit gərginlikli elektrik enerjisi təchizatı üçün 2 ədəd 110/35/6,3 kVt-luq müasir yarımstansiyanın tikilməsi nəzərdə tutulur. Parka bir mənbədən iki istiqamətdən qaz verilişi xətləri çəkilib ki, bu da bütün təhlükəsizlik normalarına cavab verməklə avtomatik nəzarət paneli vasitəsilə idarə ediləcək. Sənaye Parkında içməli, texniki və yanğın suyuna olan ehtiyacı ödəmək üçün ümumilikdə 5 ədəd su anbarı inşa olunacaq.**

Parkın ərazisində rahat və maneəsiz hərəkəti təmin etmək məqsədi ilə ərazidə mərkəzi, dairəvi və ara yollar salınacaq. 2 istiqamətdə - şimal və cənub istiqamətlərinə dəmir yol xətləri çəkiləcək. Sənaye Parkında idxal-ixraca, müxtəlif növ əmtəələrin və malların təchizatına şərait yaradılması məqsədilə Logistik Mərkəz fəaliyyət göstərəcək. Mərkəz müxtəlif tipli yüklərin, o cümlədən, xammalın, hazır məhsulların və avadanlığın nəqlinə xidmət edəcək.

Burada həmçinin rezidentlərə xidmət məqsədilə magistral dəmir yol xəttinə birləşən dəmir yol qovşağı da inşa olunacaq. Dəmir yol qovşağın yaxınlığında yükləmə-boşaltma məntəqəsi yerləşəcək. Məntəqəyə yaxın ərazidə isə 10 min $m^2$ ərazini əhatə edəcək 2 ədəd anbar inşa olunacaq.

Parkın ərazisində 500 tələbənin təhsil ala biləcəyi Peşə Tədris Mərkəzi fəaliyyət göstərəcək ki, burada əsasən kimya, inşaat və mexatronika istiqamətləri üzrə 30-a yaxın peşə hazırlığı həyata keçiriləcək. Sənaye parkında 3 təcrübə emalatxanasının tikilməsi də nəzərdə tutulan məsələlərdəndir.

Sənaye Parkının bütün infrastrukturunun Azərbaycan hökuməti tərəfindən maliyyələşdirilməsi perspektiv layihələrə investisiya qoyuluşunu da azaldacaq.

**Hazırda Cənubi Qafqazın ilk kimya sənaye parkı olan SKSP-nin əsas hədəfi Qafqaz və Orta Şərq regionunda kimya-sənaye mərkəzinə çevrilməkdir. Bundan başqa, parkda yerli istehsalın rəqabət qabiliyyətliliyini artırmaq, ölkədə innovativ və yüksək texnoloji istehsalı və bu sahədə sahibkarlığı genişləndirmək, qeyri-neft sektorunun inkişafını stimullaşdırmaq, investorlar üçün geniş imkanlar yaratmaq, kimya sənayesində innovativ və yüksək texnoloji istehsalın əsas mərkəzinə çevrilmək, regionda kimya sənayesi məhsullarının əsas təchizatçısı olmaq və "Araşdırma və inkişaf" işinin təşkili, biznes inkubatorların yaradılması da SKSP-nin əsas hədəflərindəndir.**

Azərbaycanda innovativ sənaye quruculuğunun irimiqyaslı lahiyəsi kimi Sumqayıt Kimya Sənaye Parkında investorlar üçün ən münasib işgüzar şərait mövcuddur. Belə ki, Sumqayıt Kimya Sənaye Parkının, ümumiyyətlə isə Azərbaycanda fəaliyyət göstərən sənaye və texnologiyalar parklarının rezidentləri 7 il müddətinə mənfəət, torpaq, əmlak vergilərindən, eləcə də parka istehsal məqsədilə gətirilən avadanlıq və texnologiyalar əlavə dəyər vergisindən azaddır.

Sumqayıt Kimya Sənaye Parkında rezidentlərin qeydiyyatı "bir pəncərə" sistemi ilə həyata keçirilir ki, bu da sahibkarlara daha operativ və rahat xidmətin təşkilini təmin edir. Sənaye parkının idarəedici təşkilatı olan "Sumqayıt Kimya Sənaye Parkı" MMC rezidentlərə geniş spektorda xidmətlər təklif edir. Bütün xidmətlər o cümlədən, məlumatların toplanılması, marketinq araşdırmaları və təhlillər, investorlarının sorğularının cavablandırılması, müxtəlif təyinatlı tədbirlərin təşkili, yerli partnyorların və təmsilçilərin seçilməsində dəstək, məsləhət xidmətləri, treninqlər və digər xidmətlər Sumqayıt Kimya Sənaye Parkının rezidentlərinə ödənişsiz təklif olunur.

Sənaye parkının rezidentləri isə əsasən "Azertexnolayn" MMC, "SOCAR Polymer" MMC, "AzerFloat" QSC, "Azerbaijan Fibro Cement" MMC və "Bakı Əlvan Metallar və Ferroərintilər Şirkəti" MMC-dir. Həmin rezidentlərin layihələr üzrə cəlb edilmiş investisiya həcmi 1,1 milyard ABŞ dolları təşkil edir.

**Kimya sənayesi üzrə ixtisaslaşmış bir sıra tanınmış şirkətlər Sumqayıt Kimya Sənaye Parkına investisiya yatırılmasına maraq göstərirlər ki, bu da Parkın gələcək inkişafı baxımından önəmlidir. Kanada, Almaniya, Yaponiya, Fransa, İtaliya və Türkiyədən olan şirkətlər, o cümlədən yerli şirkətlər Sumqayıt Kimya Sənaye Parkının rezidenti olmaq niyyətindədirlər. Təkliflərin əksər hissəsi neft-kimyası, əczaçılıq, tikinti sənayesi kimyası üzrə layihələrdən ibarətdir ki, hazırda bu layihələrə baxılır.**

*Mətanət HÜSEYNOVA*



# Vergilər Nazirliyində görüş keçirilib

**Mart ayının 4-də vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Gennadi Axramoviçlə görüşüb.**



Qonağı salamlayan vergilər naziri ölkələrimiz arasında yüksək səviyyəli əlaqələrin mövcud olduğunu, ikitərəfli münasibətlərin dostluq, əməkdaşlıq və qarşılıqlı yardım prinsipləri əsasında qurulduğunu, Azərbaycan ilə Belarus arasında əlaqələrin bütün sahələrdə dinamik şəkildə inkişaf etdiyini bildirib. Qeyd olunub ki, iki dövlət arasında mövcud olan mehriban münasibətlər ikitərəfli əlaqələrin inkişafına müsbət təsir edir, ölkələrimiz beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini dəstəkləyir.

Ölkəmizdə mövcud biznes və vergi mühiti barədə qonağı məlumatlandıran F.Məmmədov Azərbaycanda xarici sərmayəçilər üçün yaradılan əlverişli şərait, investisiya mühitinin cəlbediciliyinin artırılması istiqamətində ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar barədə danışıb.Bildirilib ki, Azərbaycan xarici sərmayələrin cəlb edilməsi üçün açıq siyasət yürüdür, ölkəmizdə ixrac yönümlü istehsal sahələri dövlət tərəfindən təşviq olunur, sahibkarlığın inkişafına hərtərəfli dəstək verilir.

Ölkələrimiz arasındakı əlaqələrin möhkəmləndirilməsi baxımından səfirliyin fəaliyyətini xüsusi qeyd edən F.Məmmədov iqtisadi tərəfdaşlığın dərinləşdirilməsi istiqamətində səylərinin artırılmasının vacibliyini vurğulayıb və qarşıdakı diplomatik fəaliyyəti dövründə yeni səfirə uğurlar arzulayıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən səfir G.Axramoviç Azərbaycan-Belarus ikitərəfli münasibətlərinin fəal şəkildə inkişaf etdirilməsi üçün böyük potensial olduğunu vurğulayıb. O, ölkəsinin siyasi-iqtisadi əlaqələrin daha da dərinləşdirilməsində maraqlı olduğunu qeyd edib və ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində aparılan işləri yaxından izlədiyini bildirib. Səfir G.Axramoviç qarşıdakı dövrdə ikitərəfli münasibətlərin bütün sahələrdə daha dinamik şəkildə inkişaf etdirilməsi ilə bağlı səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.



# Millət vəkilləri "Veysəloğlu"da

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, millət vəkili, akademik Ziyad Səmədzadənin başçılıq etdiyi nümayəndə heyəti Veysəloğlu Şirkətlər Qrupuna səfər ediblər.**

Millət vəkilləri Mahir Abbaszadə və Tahir Kirişçilinin də daxil olduğu nümayəndə heyətinin şirkətə səfərində məqsəd ölkə başçısının sahibkarlığın inkişafına göstərdiyi diqqət və qayğı, yerli istehsalın stimullaşdırılması, bu istiqamətdə olan maneələrin aradan qaldırılması, iş adamlarına lazımi köməkliyin göstərilməsi ilə bağlı verdiyi tapşırıqlardan irəli gələn vəzifələrin icrası və onları maraqlandıran məsələlər ilə yaxından tanış olmaqdır.

Komitə üzvləri səfər proqramı çərçivəsində Ulduz şokolad fabrikinə gələrək burada yaradılmış iş yerləri və istehsalat prosesi ilə yaxından tanış olmuşlar. Millət vəkillərinə məlumat verilərək bildirilmişdir ki, Avropanın ən müasir avadanlıqları ilə təchiz edilmiş fabrikdə istehsal edilən məhsullar "Azərbaycan malı" adı altında dünyanın 20-ə yaxın ölkəsinə ixrac olunaraq hər il keçirilən nüfuzlu beynəlxalq sərgilərdə ölkəmizi qida sektorunda layiqincə təmsil edir. Fabrik rəhbərliyi həmçinin bildirmişdir ki, ölkə başçısı cənab İlham Əliyevin sahibkarlığın inkişafına göstərdiyi xüsusi diqqət və verdiyi dəstək nəticəsində müəssisənin istehsal gücü bir neçə dəfə artırılmışdır.

Millət vəkilləri istehsalat prosesini izlədikdən sonra Veysəloğlu satış və distribütor şirkətinin anbar infrastrukturu ilə də yaxından tanış olmuşlar. Burada qonaqlara məlumat verilərək bildirilmişdir ki, ən müasir avadanlıqlar ilə təchiz olunmuş qida və qeyri-qida məhsullarının saxlanılması üçün inşa edilmiş anbar binası bu sahədə ixtisaslaşmış mütəxəssislər tərəfindən hazırlanmış və ekspertlər tərəfindən yüksək qiymətləndirilmişdir.

Səfər proqramında millət vəkillərinə Veysəloğlu şirkətlər qrupunun fəaliyyətini əks etdirən video rolik nümayiş etdirilmişdir. Görüşdə qonaqlara şirkətin qeyri-neft sektorunun inkişafı, iş adamlarına göstərilən dövlət qayğısı, ölkə başçısının yerli sahibkarlığın inkişafı istiqamətinə imzaladığı fərman və sərəncamlar, qarşıda duran vəzifələr, mövcud çətinliklər və perspektivlər barəsində geniş fikir mübadiləsi aparılmışdır.

Görüşün sonunda komitə sədri Ziyad Səmədzadə qeyri-neft sektorunun, o cümlədən yerli sahibkarlığın inkişaf etdirilməsi, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılması, yeni iş yerlərinin açılmasının daim ölkə başçısının diqqət mərkəzində olduğunu və bu istiqamətdə iş adamlarına lazımi şəraitin yaradılacağını vurğulamışdır.

Şirkət rəhbərliyi isə öz növbəsində ölkəmizdə biznes mühitinin daha da yaxşılaşması, ölkə başçısı cənab İlham Əliyevin sahibkarlığın inkişafına verdiyi xüsusi dəstəyin sahibkarların fəaliyyəti üçün bir stimul verdiyini, iş adamlarına göstərilən dövlət qayğısını, sahibkarlığın inkişaf etdirilməsi istiqamətində həyata keçirilən müxtəlif Dövlət Proqramları və tətbiq olunan güzəştlərin özəl sektora ölkə rəhbərinin xüsusi diqqətindən xəbər verdiyini və bu addımların qısa müddət ərzində ölkə itisadiyyatına öz müsbət töhfəsini verəcəyinə əmin olduğunu bildirib.

# Vergilər naziri Fazil Məmmədov İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri ilə görüşüb

Mart ayının 4-də vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov İsrail Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Dan Stavı qəbul edib.

Azərbaycan Respublikasına fövqəladə və səlahiyyətli səfir təyin olunması münasibətilə cənab Dan Stavı təbrik edən F.Məmmədov son illər ərzində əldə olunmuş uğurların əsasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düşünülmüş iqtisadi siyasətin dayandığını bildirib. Ölkəmizdə multikultural və tolerant mühitin dərin tarixi köklərə malik olduğunu vurğulayan nazir Prezident İlham Əliyev tərəfindən 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsinin təsadüfi olmadığını bildirib. Vergilər naziri Azərbaycanda dini tolerantlığın hökm sürdüyünü qeyd edərək, ölkəmizdə yaşayan müxtəlif xalqların, o cümlədən yəhudi xalqının multikulturalizmin yaratdığı dəyərlərdən bəhrələndiyini deyib.

Sonra nazir Azərbaycanda reallaşdırılan vergi islahatları, vergi inzibatçılığı və informasiya texnologiyalarının tətbiqi, vergi ödəyicilərinə göstərilən elektron xidmətlər, elektron hökumət quruculuğu və elektron hökumətdən mobil hökumətə keçidlə bağlı Vergilər Nazirliyi tərəfindən aparılan işlər barədə danışıb.

Görüşdən məmnunluğunu ifadə edən cənab Dan Stav ölkəsinin Azərbaycanla əlaqələrə mühüm əhəmiyyət verdiyini, son illər ərzində qarşılıqlı olaraq yüksək səviyyəli nümayəndə heyətlərinin səfərlərinin təşkil olunduğunu, mövcud əməkdaşlığın genişləndirilməsi üçün diplomatik fəaliyyəti dövründə səylə çalışacağını bildirib.

İqtisadi və digər sahələrdə partnyorluğun daha da genişləndirilməsini qarşıya qoyulan prioritet vəzifələrdən biri olduğunu deyən Dan Stav səfir kimi fəaliyyəti dövründə ikitərəfli və beynəlxalq əməkdaşlıq çərçivəsində münasibətlərin daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini söyləyib. Ölkələrimiz arasında sərmaye qoyuluşu və investisiların təşviqi ilə bağlı yeni i8mkanların açıldığını bildirən səfir son zamanlar bun sahədə qanunvericilikdə mühüm dəyişikliklərin olduğunu diqqətə çatdırıb.

Görüşdə ölkələrimiz arasında iqtisadi, enerji, yüksək texnologiyalar, kənd təsərrüfatı, mədəniyyət sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Vergilər Nazirliyində vergi ödəyiciləri ilə görüş keçirilib

Martın 4-də Vergilər Nazirliyində Bakıda və ölkənin digər bölgələrində istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri ilə görüş keçirilib.

Vergilər nazirinin müavini Sahib Ələkbərov görüşü açaraq ölkədə yaranmış yeni iqtisadi şəraitdə sahibkarlığın inkişafı, bu sahədə mövcud olan problemlərin həlli yolları ilə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib. Bildirilib ki, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafının prioritet elan edildiyi yeni dönəmdə yerli istehsalın artırılması və sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması əsas hədəflərdir. Son aylar bu sahədə həyata keçirilən tədbirlərə toxunan nazir müavini ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq fərmanı ilə sahibkarlıq sahəsində aparılan yoxlamaların 2 il müddətinə dayandırıldığını, sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının 59-dan 37-ə qədər azaldıldığını, onların verilməsi prosedurlarının sadələşdirildiyini, ixracyönümlü istehsalın stimullaşdırılması və ixrac fəaliyyətinin təşviq edilməsi ilə bağlı konkret tədbirlər görüldüyünü qeyd edib.

Bildirilib ki, son illər ölkədə yaradılmış çoxsaylı müəssisə, texnoparklar və müxtəlif istehsal və sənaye obyektlərinə dövlət tərəfindən böyük məbləğdə investisiyalar qoyulub, fərdi sahibkarlara kiçik müəssisələrin yaradılması üçün güzəştli kreditlər verilib. İstehsal müəssisələrin öz fəaliyyətini yeni iqtisadi çağırışlara uyğun və şəffaf şəkildə qurmalı olduqlarını vurğulayan S.Ələkbərov bu istiqamətdə görüləcək işlər içərisində uçotun düzgün aparılmasının hazırda qarşıda duran ən mühüm məsələlərdən biri olduğunu bildirib.

Bir gün əvvəl ticarət sahəsində fəaliyyət göstərən vergi ödəyiciləri ilə keçirilmiş görüşdə onların bəzi hallarda yerli istehsalçılardan pərakəndə ticarət şəbəkəsində satışa çıxarmaq üçün mal əldə edərkən müvafiq sənəd ala bilmədiklərini söylədiklərini diqqətə çatdıraraq, belə halların yolverilməz olduğunu və belə faktlar aşkarlanarsa, vergi orqanları tərəfindən qanunamüvafiq tədbirlər görüləcəyini görüş iştirakçılarının nəzərinə çatdırıb.

Nazir müavini vergi ödəyicilərini dövriyyələrini düzgün göstərməyi və sənədləşdirmə işlərini qaydasına salmağı tövsiyə edərək bildirib ki, bu sahədə hansısa problemlə üzləşən vergi ödəyiciləri lazımi köməklik almaq üçün Vergilər Nazirliyinə, Bakı Vergilər Departamentinə, Ərazi Vergilər İdarələri və Departamentlərinə və müvafiq ərazilərdəki vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Sonra S.Ələkbərov və Vergilər Nazirliyinin görüşdə iştirak edən digər rəhbər vəzifəli şəxsləri görüş iştirakçılarının çoxsaylı suallarını cavablandırıblar.

## ELAN

### Vergi ödəyicilərinin NƏZƏRİNƏ!

2015-ci hesabat ilinin yekunlarına görə:
- Gəlir vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin bəyannaməsini;
- Mənfəət vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident hüquqi şəxslər mənfəət vergisinin bəyannaməsini;
- Əmlak vergisinin ödəyicisi olan müəssisələr əmlak vergisinin bəyannaməsini cari ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim etməyə, hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməyə borcludurlar.

### Mənfəət və gəlir vergisi ödəyicilərinin NƏZƏRİNƏ!

Bildiririk ki, 2015-ci ilin yekununa görə, hüquqi şəxslər mənfəət və əmlak vergisi üzrə, fiziki şəxslər gəlir vergisi üzrə bəyannamələrini 31 mart 2016-cı il tarixdən gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək dövlət büdcəsinə ödəməlidirlər.

Əlavə məlumat üçün «195-1» Çağrı Mərkəzinə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Vergilər Nazirliyi

# Vergi Apelyasiya Şurasında....

Vergi Apelyasiya Şurası vergi ödəyicisi kimi Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentində qeydiyyatda olan fiziki şəxs Rəhimov Rəhman Məmmədrəhim oğlunun əlavə dəyər vergisi qeydiyyatının və hesablanmış vergi məbləğinin ləğv edilməsi barədə təkrar şikayətlərinə baxıb.

Vergi ödəyicisi Rəhman Rəhimov "Konsis" MMC-yə göstərilmiş xidmətin dəyəri ilə bağlı mədaxil qəbzində göstərilən məbləğin səhvən artıq yazıldığını bildirərək, bununla bağlı müvafiq təhvil-təslim aktını, mədaxil qəbzinin surətlərini və "Konsis" MMC-nin arayışını təqdim edib və "Əlavə dəyər vergisi ödəyicisinin qeydiyyat" bildirişinin, ƏDV hesabatlarının vaxtında təqdim edilməməsinə görə tətbiq edilmiş maliyyə sanksiyalarının və hesablanmış vergi və faizlərin ləğv olunmasını xahiş edib.

Araşdırma zamanı R.Rəhimov tərəfindən 2015-ci ilin 2-ci rübü üçün sadələşdirilmiş vergi bəyannaməsi təqdim edildikdən sonra, ardıcıl 12 aylıq dövr ərzində vergi tutulan əməliyyatların həcminin 120000,0 manatdan artıq olduğu və ƏDV məqsədləri üçün qeydiyyata dair ərizə verilməsi öhdəliyinin yarandığı müəyyən edilib. Vergi ödəyicisi tərəfindən göstərilən müddət ərzində ƏDV məqsədləri üçün qeydiyyata dair müvafiq ərizə təqdim edilmədiyi üçün o, Vergi Məcəlləsinin 157.5-ci maddəsinin tələblərinə uyğun olaraq vergi orqanının təşəbbüsü ilə ƏDV məqsədləri üçün məcburi qeydiyyata alınıb.

Bundan sonra, kameral vergi yoxlaması ilə 2015-ci ilin 2-ci və 3-cü rübləri üzrə hesablanmış sadələşdirilmiş vergi məbləğləri azaldılaraq əlavə dəyər vergisi hesablanıb və vergi ödəyicisinə "Vergilərin hesablanması barədə" Qərarlar göndərilib.

ƏDV məqsədləri üçün məcburi qeydiyyata alındıqdan sonra vergi ödəyicisi tərəfindən müvafiq dövrlərə dair təqdim edilmiş sadələşdirilmiş vergi bəyannamələri təqdim edilib, eyni zamanda, nağd qaydada aparılan əməliyyatlar barədə təqdim olunmuş kassa sənədlərinin araşdırılması zamanı 30 may 2014-cü il tarixli mədaxil qəbzinə düzəliş edildiyi müəyyən olunub. Bundan əlavə, vergi ödəyicisinə 2015-ci ilin may-oktyabr ayları üzrə əlavə dəyər vergisi bəyannamələrinin müəyyən edilmiş müddətdə verilməməsinə görə maliyyə sanksiyaları da tətbiq olunub.

Vergi ödəyicisinin nümayəndəsi Natiq Nəcəfov araşdırmaya təqdim etdiyi izahatında 2014-cü ilin may ayında "Konsis" MMC-yə təqdim edilmiş kassa mədaxil qəbzində edilmiş səhvin anlaşılmazlıq nəticəsində olduğunu, R.Rəhimovun qeyd olunan ciddi hesabat blankları ilə işləmək praktikasının olmadığını və bununla bağlı müvafiq qanunvericilik aktlarından xəbərsiz olduğunu bildirib.

Vergi Apelyasiya Şurasının iclasında aparılan müzakirələrdə qanunvericiliyin bütün ziddiyyətli və aydın olmayan məqamlarının vergi ödəyicisinin xeyrinə şərh edilməsi, həmçinin sahibkarlıq və investisiya fəaliyyətinin təşviq etməsi ilə bağlı müvafiq müddəaların nəzərə alınması, eləcə də təkrar şikayət üzrə işin faktiki halları, gətirilmiş dəlillər və təqdim edilmiş sübutlar əsas götürülməklə, təkrar şikayətin təmin edilməsi barədə qərar qəbul edilib.

# Aqrarkreditin aktivləri kəskin artıb

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatı 2015-ci il üzrə 288.6 min manat xalis mənfəət ilə başa vurub.

Ötən il təşkilatın cəmi gəlirləri 5 milyon 152,1 min manat, o cümlədən faiz gəlirləri 4 milyon 470.7 min manat, qeyri-faiz gəlirləri 681.4 min manat təşkil edib. Təşkilatın xalis əməliyyat mənfəəti 1 milyon 147.3 min manat olub və bu məbləğin 858.7 min manatı aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına ayrılıb.

31 dekabr 2015-ci il tarixinə"Aqrarkredit"in cəmi aktivləri 3 milyard 185 milyon 869.8 min manat təşkil edib. Aktivlərin 3 milyard 133 milyon manatı 407.8 min manatı ötən il Azərbaycan Beynəlxalq Bankı ASC-dən qəbul olunmuş toksik (pis) aktivlər olub. Təşkilatın müştərilərə verdiyi kreditlər cəmi 23 milyon 373.3 min manat təşkil edib.

Təşkilatın öhdəlikləri 3 milyard 172 milyon 463.6 min manat, o cümlədən buraxılmış borc qiymətli kağızları (istiqrazlar) 2 milyard 497 milyon 374.5 min manat, Azərbaycan Beynəlxalq Bankı ASC-dən qəbul olunmuş aktivlər üzrə öhdəliklər 662 milyon 529.9 min manat təşkil edib.

# БМР: на глобальную экономику надвигается шторм

Банк международных расчетов (БМР) предупреждает о "надвигающемся шторме" в мировой экономике, частично вызванным действиями правительств во всем мире, разрабатывающих различные варианты денежно-кредитной политики.

| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 6 837 249,53 |

**BÜDCƏYƏ və BÜDCƏDƏNKƏNAR ÖDƏNİŞLƏR**

*manatla*

| Göstəricilərin adları | Hesablanmışdır | Faktiki ödənilmişdir |
|---|---|---|
| Mənfəətdən vergi | 1741687,91 | 630000 |
| Əlavə dəyər vergisi | 27058,8 | 27058,8 |
| Gəlir vergisi | 255048,14 | 248680,74 |
| Əmlak vergisi | 1769,91 | |
| Torpaq vergisi | | |
| Aksizlər | | |
| Üdəmə mənbəyində vergi (4%) | 140091,63 | |
| Sair vergilər | 38342,17 | 281400,98 |
| Sosial sığorta və təminat | 408554,65 | 407535,74 |
| Məcburi üdənişlər (0,3%) | 28805,61 | 27478,13 |
| İqtisadi sanksiyalar | | |

## "ANR Audit" Məhdud Məsuliyyətli Cəmiyyəti

## MÜSTƏQİL AUDİTORUN RƏYİ

«Xalq Sığorta» Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarına:

1. Biz «Xalq Sığorta» Açıq Səhmdar Cəmiyyətinin 31 dekabr 2015-ci il tarixinə təqdim edilən maliyyə vəziyyətinə dair hesabatı və həmin tarixdə tamamlanan il üzrə məcmu gəlirlərə dair hesabatı, kapitalda dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti hesabatından, eləcə də əsas uşot prinsiplərinin xülasəsindən və digər izahedici qeydlərdən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

### Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti

2. Hazırkı maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə Rəhbərlik məsuliyyət daşıyır. Bu məsuliyyətə aşağıdakılar daxildir: fırıldaqçılıq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı, maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sisteminin yaradılması, tətbiq edilməsi və davam etdirilməsi; müvafiq uçot siyasətinin seçilməsi və tətbiq edilməsi; şəraitdən asılı olaraq məqbul uçot təxminlərinin irəli sürülməsi.

### Auditorun məsuliyyəti

3. Bizim məsuliyyətimiz apardığımız audit yoxlamasına əsasən maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Biz audit yoxlamamızı Beynəlxalq Audit Standartları əsasında apardıq. Həmin Standartların tələblərinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olaq.

4. Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizələrindən, eləcə də fırıldaqçılıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, audit yoxlamasına mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

5. Biz hesab edirik ki, əldə etdiyimiz auditor sübutları rəyimizi bildirmək üçün kifayət qədər əsas verir.

### Rəy

6. Bizim fikrimizcə, təqdim edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Cəmiyyətin 31 dekabr 2015-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq düzgün əks etdirir.

"ANR Audit" MMC-nin direktor - auditoru
Abbaslı Namiq Rasim oğlu
Bakı, Azərbaycan Respublikası
05 fevral 2016-cı il

# Problemli kreditlərin həcmi 13% azalıb

Kredit qoyuluşlarında vaxtı keçmiş kreditlərin həcmi bu ilin fevralın 1-ə 1 mlrd. 314,6 mln. manat təşkil edib.

Bu, illik müqayisədə 283,7 mln. manat və ya 27,52% çoxdur.

Ötən ilin dekabr ayı ilə müqayisədə bu ilin yanvarında problemli kreditlərin həcmi 193,9 mln. manat və ya 12,85% azalıb.

Onu da qeyd edək ki, vaxtı keçmiş kreditlərin ümumi kredit qoyuluşlarında xüsusi çəkisi 6,2% təşkil edir.

# Fitch Azərbaycanın 3 bankının reytinqini təsdiqlədi




Beynlxalq kredit reytinqi agentliyi "Fitch Ratings" Azərbaycanın "AccessBank" QSC-nin uzunmüddətli defolt reytinqini "BBB-"dən "BB+" səviyyəsinə endirib.

"AccessBank"ın reytinqinin aşağı salınması, 26 fevral 2015-ci il tarixində Azərbaycanın reytinqinin azaldılaraq "BBB-"dən "BB+" səviyyəsinə salınması ilə bağlı olmuşdur.

Həmçinin, Fitch, "Azərbaycan Beynəlxalq Bankı" ASC və "PAŞA Bank" ASC-nin reytinqlərini müvafiq olaraq "BB" və "BB-" olaraq təsdiqləmişdir.

Hər 3 bankın reytinqinin proqnozu "Mənfi"dir.

Qeyd edək ki, Fitch Ratings "AccessBank"ın reytinqini aşağı salsa belə, Bank ölkə bankları arasında ən yüksək reytinqə malik kredit təşkilatı olaraq qalır.

Fitch qeyd edib ki, AccessBank yüksək ödəniş qabiliyyətinə malikdir, risklərə güclü nəzarət mövcuddur və Bank güclü kapitala malikdir. Lakin Fitch yenə hesab edir ki, neftin qiymətinin aşağı düşməsi və devalvasiyalardan sonra ölkədəki vəziyyət ilə bağlı olaraq 12-18 ay ərzində Bankın maliyyə profili bir qədər pisləşə bilər.

# Banklar əhaliyə 521,4 milyon manat faiz ödəyib




2015-ci ildə Azərbaycanda banklar əhaliyə cəlb olunan əmanətlər üzrə faizlər qismində 521,4 mln. manat məbləğində vəsait ödəyiblər.

Bu barədə Azərbaycan Mərkəzi Bankından (AMB) məlumat verilib.

"Əhali bank sektoruna nisbətən xalis kreditordur. Əhalinin əmanətlərinin həcmi onlara verilən kreditlərin həcmindən (8 milyard 383,6 milyon manat) çoxdur. Bütövlükdə, 2015-ci ildə banklar əhaliyə gəlirlər üzrə faizlər qismində 521,4 mln. manat vəsait ödəyiblər", - deyə AMB-dən qeyd ediblər.

2015-ci ilin sonunda Azərbaycanda əhalinin bank əmanətləri 9,5 mlrd. manat təşkil edib.

# Ödəniş kartlarının sayı azalıb



Bankların bir sıra əməliyyatlara məhdudiyyətlər tətbiq etməsi fonunda, kredit kartlarının sayı sürətlə azalır.

Mərkəzi Banka istinadən, təkcə yanvar ayında kredit kartlarının sayı 201 min ədəd azalaraq 1 milyon 10 min ədəddən 809 min ədədə geriləyib. Azərbaycanda sonuncu dəfə bu sayda kredit kartı 2013-cü ildə qeydə alınmışdı.

Ötən ilin yanvar ayı ilə müqayisədə isə kredit kartlarının sayı 513 min ədəd azalıb. 2015-ci ilin yanvar ayının sonunda kredit kartlarının sayı 1 milyon 322 min ədədə çıxmışdı.

Yanvar ayında sosial, əməkhaqqı və digər debet kartlarının da sayı azalıb.

Yanvar ayında sosial kartların sayı 7 min ədəd azalaraq 2 milyon 444 min ədədə, əməkhaqı kartlarının sayı 8 min ədəd azalaraq 1 milyon 449 min ədədə, digər debet kartlarının sayı isə 42 min ədəd azalaraq 690 min ədədə düşüb.

Bütün kartların sayının azalması ilə əlaqədar olaraq cəmi ödəniş kartlarının sayı da 267 min ədəd azalaraq 01 fevral 2016-cı il tarxinə 5 milyon 392 min ədəd təşkil edib. Cəmi ödəniş kartlarının sayı 2015-ci ilin iyun ayında 6 milyon 88 min ədədə qədər çıxmışdı.

### ƏMƏLİYYATLARIN SAYI VƏ HƏCMİ DƏ AZALIB

Ötən ilin yanvar ayı ilə müqayisədə yanvar 2016-da ödəniş kartları ilə aparılan əməliyyatların sayı 465 min sayda azalaraq 5 milyon 953 minə, əməliyyatların həcmi isə 21 milyon manat azalaraq 878 milyon manata düşüb.

# İNNOVASİYA

*İqtisadiyyatımızın innovasiya iqtisadiyyatına istiqamətləndiyi bir şəraitdə əhalinin innovasiya fəallığının yüksəldilməsi ən vacib problemlərdən biridir. Etiraf edək ki, xalq təsərrüfatının əksər sahələrində çalışan işçilərin innovasiya fəallığı aşağıdır.*

*İnnovasiya fəallığının yüksəldilməsi üzrə ölkəmizdə tədqiqatların aparılmamasını və milli dilimizdə yazılı materialların qıtlığını nəzərə alaraq professor Albert Tağıyevin bu yaxınlarda işıq üzü görmüş "İnnovasiya" kitabından (9-cu broşüra) silsilə məqalələri oxucuların nəzərinə çatdırırıq.*



**A.H.TAĞIYEV,**
**Sumqayıt Dövlət Universitetinin "Menecment" kafedrasının müdiri, professor**

## İNNOVASİYA FƏALLIĞININ YÜKSƏLDİLMƏSİNİN ÜMUMİ PROBLEMLƏRİ

İstənilən iqtisadi münasibətlərdə dövlətin amiranəlik funksiyası saxlanılır.

Azərbaycan Respublikasının iqtisadiyyat sahəsində strategiyalarının ən vacib tərkib hissələrindən biri ölkədə innovasiya iqtisadiyyatının formalaşdırılmasıdır. İnnovasiya iqtisadiyyatının formalaşdırılmasının nəzəri əsasları innovasiya fəaliyyətinin gücləndirilməsidir.



İnnovasiya fəaliyyətinin gücləndirilməsi isə öz növbəsində əhalinin innovasiya fəallığının yüksəldilməsi ilə bağlıdır. Odur ki, dövlət əhalinin innovasiya fəallığının yüksəldilməsi qayğısına qalmaqla müvafiq tədbirlər görməlidir.

Fikrimizcə, bu sahədə dövlətin apardığı iş aşağıdakı istiqamətlərdə olmalıdır:

- ***innovasiya fəaliyyətinin hüquqi bazasının yaradılması;***
- ***innovasiya fəallığının yüksəldilməsinin kütləvi informasiya vasitələrində geniş təbliğ edilməsi;***
- ***inovasiya fəallığının motivləşdirilməsi;***
- ***təhsil sistemində innovasiya sahəsi üzrə kadrların hazırlanması.***

İnnovasiya fəaliyyətinin hüquqi bazasının yaradılmasında əsas məqsəd innovasiya fəaliyyəti obyektlərinin və subyektlərinin fəaliyyətlərinin və onlar arasında olan münasibətlərin məlum qanunlar çərçivəsində aparılmasının təmin edilməsidir. Burada əhatə edilən ən əsas vəzifələrdən biri innovatorların intellektual mülkiyyət hüquqlarının qorunmasıdır.

Ölkənin geniş əhali kütləsinin innovasiya fəallığını yüksəltmək üçün kütləvi informasiya vasitələrində maarifləndirmə işləri aparılmalıdır. Bu məqsədlə alimlərlə müsahibələr aparılmalı, onların məqalələrinin mətbu orqanlarda dərc olunmasına geniş yer verilməli,
müxtəlif broşüralar mütəmadi olaraq nəşr edilməlidir. Əksər hallarda nəşrlər üzrə müsabiqələrin və sərgilərin təşkilinə geniş yer verilməlidir. Xüsusi ixtisasartırma təşkilatları yaradılmalı və onların fəaliyyətinin səmərəli təşkilinə nail olunmalıdır.

Bu təşkilatlar fasiləsiz olaraq kadrların ixtisasının artırılması ilə məşğul olmalıdır. Onlar özünümaliyyələşdirmə prinsipi əsasında da yaradıla bilər. Müəssisə və təşkilatlarda kadrlara olan tələblər dövlət səviyyəsində yenidən qüvvədə olmalıdır.

İnnovasiya təhsili gücləndirilməlidir. İnnovasiya təhsilinin məqsədləri gündəlik həyat fəaliyyəti məsələlərində və eləcə də ekstremal, böhran vəziyyətlərində innovasiyanın generasiya edilməsi qabiliyyəti olan, yüksək mənəviyyatlı, əxlaqlı, peşəkar şəxsin hazırlanmasıdır. O, şüurlu vətəndaş mövqeyinə malik, vətənpərvər, mədəni, ensiklopedik savadı olan ziyalı, sağlam həyat tərzi olan, fiziki sağlamlığı üzərində çalışan şəxs olmalıdır. Məsələ onda deyil ki, məzun bu peşəkarlıq fəaliyyətində "sağ qalsın", o bu işin fəal yaradıcı və qurucusu olmalıdır. Məzunun liderlik keyfiyyətinin olması vacibdir.

O, fasiləsiz professional təhsilə motivləşən, fəal, sərbəst idrak mövqeyinə malik olmalıdır. Məzun hərtərəfli mükəmməl olmalıdır və lazımi kommunikasiyanı yaratmağı, öz mövqeyini savadlı izah edib, onu müdafiə etməyi, yeni məsələlərin həlli üçün yeni əsaslandırmalar və üsullar axtarmalı, müxtəlif planlı informasiya üzərində özünün bilik sistemini qura bilib, yeni bilikləri generasiya etməyi bacarmalıdır.

İnnovasiya təhsili bir struktur kimi innovasiya təfəkkürünün formalaşdırılmasına yönəldilən təlim və tərbiyədən asılıdır. Onun cəmiyyətdə fəaliyyət funksiyaları mexanizimləri aşağıdakılarla əlaqədardır:

**1.** Təhsil sferasında innovasiya prossesinin, pedoqoji innovasiyaların generasiyası və tətbiq edilməsi məqsədilə əlverişli yaradıcılıq şəraitlərinin yaradlması.

**2.** Təhsildə iqtisadi siyasətə, təhsilin mənəvi, əxlaqi, professional təşkil edilməsinə uyğun olaraq pedaqoji innovasiyaların generasiyasının maddi imkanlarla təmin edilməsi.

**3.** İctimai və siyasi inkişafda, quruluşda cəmiyyətin iqtisadi vəziyyətində olan ziddiyyətlərin novatorluq yolu ilə həll edilməsinə istiqamətlənməyi bacarmalı.

**4.** Özünün fəaliyyətinin professional nəticələrini qabaqcadan görmək, proqramlaşdırmaq və modelləşdirmək qabiliyyətinə malik olan və eləcə də generasiya edilmiş innovasiyaların tətbiqini planlaşdıra bilən şəxsiyyətin formalaşdırılması.

**5.** Pedoqoji innovasiyalardan, vətəndaş mövqeyinin professionallaşma konsepsiyasına arxalanan innovasiya təhsil proseslərindən ibarət olan innovasiya təhsil sisteminin yaradılması.

**6.** İnnovasiya təhsil sisteminə ümumbəşəri və milli dəyərləri dərk edən, qruplararası fəaliyyətində etnik xüsusiyyətləri və tolerantlığı nəzərə alan, mənəvi, əxlaqi şəxsiyyəti formalaşdıran innovasiya tərbiyə sisteminin daxil edilməsi.

***(davamı var)***

## Neft ixracatçıları Moskvada toplaşacaq

İraqın neft nazirinin müavini Fayadh al-Nema 20 mart 2016-cı il tarixində Moskvada OPEC üzvü və üzvü olmayan neft ixrac edən ölkələrin toplantısının keçiriləcəyini bildirib. Toplantıda istehsalın dondurulması məsələsi müzakirə ediləcəkdir.

Al-Nema etdiyi açıqlamada, "OPEC-ə üzv olan və üzv olmayan böyük neft istehsalçısı ölkələri bir araya gətirəcək və istehsalın dondurulması planının müzakirə ediləcəyi toplantının 20 martda Moskvada keçirilməsi gözlənilir", - deyə bildirib.

Bu dəqiqələrdə ICE-də Brent nefti 1,6% dollar artımla 40,30 dollardan alıcı tapır. Bazar ertəsi Brent neftinin barrelinin qiyməti 41,04 dolları görmüşdü.

# DÜNYA



## OPEC-ə üzv ölkələr neftin ucuzlaşan qiymətləri ilə yaşamağa öyrəşirlər

Neft İxrac edən Ölkələr Təşkilatına (OPEC) üzv ölkələr neftin ucuzlaşan qiymətləri ilə yaşamağa öyrəşirlər.

Neftin barrel qiymətinin 100 dollardan da baha olduğu bir neçə il davam edən bolluqdan sonra 76 faizədək ucuzlaşması nəticəsində OPEC-ə üzv ölkələr öz büdcə hesablamalarında neft qiymətinin hazırki səviyyələrə uyğun – 25 dollar/barrel (Küveyt) və 45 dollar/barrel (İraq və Anqola) olacağını proqnozlaşdırırlar. OPEC-ə üzv ölkələrin belə bir ağır büdcə planlarına nə qədər tab gətirəcəklərini isə zaman göstərəcək.

"Deutsche Bank AG"-nin hesablamalarına görə, İran və Nigeriyanın büdcə xərclərini qarşılaya bilmələri üçün neftin qiyməti 80 dollar/barrelədək bahalaşmalıdır.

## ABŞ şirkətlərinin xaricdə vergidən yayındırdıqları pul 1,1 trilyon dollardır

"Financial Times" nəşrinin məlumatına görə, ABŞ konqresmenləri Avropa İttifaqını Amerika şirkətləri üçün "düşmən" mühit yaratmaqda günahlandırıblar.

Microsoft

Avropa Komissiyasının təmsilçiləri isə vergidən yayınmaya qarşı apardıqları mübarizədə antiamerikanizmin olduğu barədə ittihamı qəti şəkildə təkzib ediblər.

Hazırda isə ABŞ şirkətlərinin vergidən yayındırmaq üçün xaricdə saxladıqları pulun məbləği 1,1 trilyon dollar qiymətləndirilir. Bu vəsaitin böyük hissəsi "Apple", "Microsoft", "Google", "Cisco" və "Oracle" kimi nəhənglərin payına düşür.

## Dünyada aclıq çəkənlərin 70 faizi qadınlardır

Bu barədə BMT-nin qidalanmaq hüququ üzrə xüsusi məruzəçisinin hesabatında bildirilir. Qeyd olunur ki, kənd təsərrüfatında



məşğul olan qadınlar dünya üzrə ərzağın 50 faizini təmin edir.

Sənəddə bildirilir ki, Sahara səhrasından cənubda Afrika ölkələrində və Karib hövzəsində qadınlar əsasən qida məhsullarının 80 faizini istehsal edirlər. Asiyada isə qadınlar düyü becərilməsinə cəlb edilən canlı qüvvənin 50-90 faizini təşkil edir. Eyni zamanda, dünyanın bir çox ölkələrində aşağı statuslu hesab edildikləri üçün qadınlar ailədə ərləri ilə müqayisədə daha pis qidalanırlar.

## Ərdoğan Ukraynadakı iqtisadi islahatlara dəstək ifadə edib

Biz Ukraynada prezident Poroşenko tərəfindən aparılan geniş iqtisadi islahatları dəstəkləyirik. Trend-in türk KİV-nə istinadən verdiyi məlumata əsasən, bunu Türki-



yənin prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada rəsmi səfərdə olan ukraynalı həmkarı Pyotr Poroşenko ilə birgə mətbuat konfransı zamanı deyib.

Prezident qeyd edib ki, Türkiyə bu istiqamətdə Ukraynanı dəstəkləməyə davam edəcək. O xatırladıb ki, Türkiyə Ukraynaya 50 milyon dollar məbləğində kredit ayırıb. Bundan başqa, Ərdoğan humanitar sahədə layihələr üçün daha 10 milyon vəsait ayrılacağını deyib.

Ötən il tərəflərin 2023-cü ilədək ölkələr arasında mal dövriyyəsini 20 milyard dollara çatdırmaq məqsədlərini xatırladan Ərdoğan əlavə edib ki, Türkiyə və Ukraynanın ümumi əhalisi 125 milyon nəfər təşkil edir və bu rəqəm məqsədə çatmaq üçün ciddi göstəricidir.

Türkiyə prezidenti həmçinin ölkələr arasında azad ticarət zonası haqqında müqavilənin bu il imzalanacağına ümidvar olduğunu deyib.

## "Qazprom"dan əlavə qaz almağa ehtiyac yoxdur



SOCAR ilə əldə olunmuş razılaşmadan sonra "Qazprom"dan əlavə qaz almağa ehtiyac qalmayıb.

Trend-in məlumatına görə, bu barədə Gürcüstanın xarici işlər naziri Mixail Canelidzenin SOCAR-la danışıqların yekunu üzrə bəyanatında deyilir.

Nazir qeyd edib ki, Rusiyanın "Qazprom" şirkəti ilə danışıqlar Gürcüstana məxsus infrastruktur vasitəsilə Rusiyadan Ermənistana təbii qaz nəqli şərtləri ilə bağlı aparılıb: "Bu qəbildən olan danışıqlar 2014-cü ildən etibarən hər il keçirilir. Eyni zamanda, danışıqlara kəsiri qarşılamaq üçün əlavə təbii qaz həcmlərinin tədarükü imkanın daxil idi. SOCAR ilə imzalanmış saziş nəticəsində "Qazprom"dan əlavə qaz alışına ehtiyac qalmayıb".

## "Mançester Yunayted Futbol Məktəbi"nə növbəti seçim başlanır

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti və Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) "Mançester Yunayted Futbol Məktəbi"nin istedadlar qruplarına qəbul prosesinin başlanmasını elan edir.

Seçimlər 2005, 2006, 2007-ci il təvəllüdlü uşaqlar arasında 15 mart 2016-cı il tarixində, saat 15:00-da, Bayıl Arena stadionunda keçiriləcək.

Bu seçim prosesi nəticəsində istedadlar qruplarında mövcud olan boş yerlərə uşaqlar cəlb olunacaq.

Seçimlərdə iştirak etmək üçün, http://manutd.az/muss/ keçidindən istifadə edərək qeydiyyatdan keçmək və aşağıda göstərilən sənədlərlə yaş qrupuna uyğun olaraq qeyd olunan tarixdə Bayıl stadionuna gəlmək lazımdır:

- Şəxsiyyəti təsdiq edən sənəd
- Sağlamlıq haqqında arayış

**Seçim prosesi ilə bağlı suallar üçün əlaqə vasitələri:**
**+994 55 511 33 03 – Ramin Həsənov, Muss@affa.az**

* * *

Qeyd edək ki, "Mançester Yunayted Futbol Məktəbi"ndə məşqlər İngiltərədən ezam olunan məşqçi Mick Bennet və yerli məşqçi assistentlər - Cahangir Həsənzadə və Samir Ələkbərov tərəfindən keçirilir. Məşqlərdən əvvəl uşaqlara intensiv şəkildə həftədə iki dəfə ingilis dili dərsləri keçirilməklə yanaşı, sürət testləri, yoldaşlıq oyunları da təşkil olunur. Eyni zamanda, istedadlar qrupunun üzvləri "Mançester Yunayted" tərəfindən forma və digər idman avadanlıqları ilə təmin olunurlar. Hazırda "Mançester Yunayted Futbol Məktəbi"ndə 3 istedadlar və 2 ilkin hazırlıq qrupu mövcuddur.

## "Bakcell"in yeni Klass tarifləri ilə Whatsapp-a pulsuz çıxış və 3 dəfədən çox internet trafiki

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti yeni Klass tariflərini istifadəyə verməklə, mobil internetdən istədikləri qədər istifadə etmək üçün öz abunəçilərinə daha çox mobil internet trafikini böyük məmnuniyyətlə təqdim edir.

Bununla yanaşı, abunəçilər təqdim olunan bu beş yeni tarif sayəsində səs xidmətlərindən istifadə edərkən vəsaitlərinə qənaət etmək və ünsiyyət qurmaq üçün əlavə imkanlar əldə edəcəklər.

Bu yeni tariflərə qoşulan bütün abunəçilər Whatsapp tətbiqinə pulsuz qoşulmaq imkanına da malik olacaqlar.

Bu beş sərfəli Klass tarifinin hər birinin üstünlükləri aşağıdakı cədvəldə göstərilib:

"Biz öz müştərilərimizin sadiqliyini həmişə yüksək qiymətləndirir və yeni məhsullar yaradarkən daim onların maraqlarını nəzərə almağa çalışmışıq ki, onların gözləntilərini doğrulda bilək. Müştəri davranışı göstəricilərinin müşahidəsi göstərir ki, data xidmətlərinə olan tələbat getdikcə artmaqdadır. Bu faktı nəzərə alaraq, biz eyni aylıq ödənişin müqabilində 3 dəfə artıq internet trafikini təqdim etməyə qərar verdik. Müştərilərimizə Azərbaycanda bütün şəbəkələrə pulsuz zəng vurmaq imkanının verilməsi də ünsiyyət prosesini onlar üçün daha münasib və asan etmək üçün gördüyümüz səylərin nəticəsidir. Biz inanırıq ki, hər bir Bakcell abunəçisi ay ərzində istifadə etdiyi həcmə daha uyğun olan ən sərfəli tarifi asanlıqla tapa biləcək",- deyə Bakcell şirkətinin baş marketinq direktoru Maria Toyçeva bildirib.

"Müştərilərimiz üçün daha bir xoş xəbər Whatsapp tətbiqinə pulsuz mobil çıxış imkanıdır. Artıq hər bir Klass abunəçisi ödədiyi aylıq tarif haqqından asılı olmayaraq mobil internet üçün pul ödəməyərək Whatsapp üzərindən ünsiyyətdə olmaq imkanına malik olacaq. Müştərilərimizi daim ən sərfəli qiymətlər və ən üstün keyfiyyətli şəbəkə ilə təmin etmək üçün səylərimizi gələcəkdə də davam etdirəcəyik",- deyə xanım Toyçeva əlavə edib.

| *Aylıq abunə haqqı* | Pulsuz danışıq dəqiqələri, SMS və mobil internet | | | | | |
|---|---|---|---|---|---|---|
| | Ölkədaxili danışıq dəqiqələri | Ölkədaxili SMS | Ölkədaxili internet | Beynəlxalq zənglər | Rouminq Səs (daxil olan) | Pulsuz Whatsapp |
| 5 AZN | 100 | | 200 MB | | | 30 gün |
| 10 AZN | 250 | | 750 MB | | | 30 gün |
| 25 AZN | 750 | 750 | 1500 MB | | | 30 gün |
| 45 AZN | 1500 | 1500 | 5000 MB | 50 | 50 | 30 gün |
| 75 AZN | Limitsiz | Limitsiz | Limitsiz | 100 | 100 | 30 gün |

## Yeni müqavilə imzaladı

"Akkord" Korporasiyasının Türkiyə filialı bu ölkədəki fəaliyyətini genişləndirərək uğurla davam etdirir.

"Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-nin İctimaiyyətlə Əlaqələr Xidmətindən daxil olmuş məlumata görə, bu günlərdə şirkət ölkənin şərq bölgəsində irimiqyaslı su-kanalizasiya tikintisi layihəsinin icrası üzrə müqaviləyə imza atıb.

"Mardin şəhərinin tullantı suları layihəsi kanalizasiya şəbəkəsi, şimal və cənub kollektorları" adlanan layihənin icrası Türkiyə Cümhuriyyəti Çevrə və Şəhərçilik Nazirliyi Avropa Birliyi Yatırımları Dairəsi Başqanlığı tərəfindən keçirilən 2015-ci il 28 sentyabr tarixli tenderin nəticəsinə əsasən, "Akkord Sanayi Inşaat Yatırım A.Ş. "-nin qurmuş olduğu ortaqlığa həvalə edilib.

Davam edən 3 layihəyə əlavə olaraq, 4-cü layihə üzrə müqavilə 2016-cı il fevralın 26-da imzalanıb.

Müqavilə dəyəri təxminən 800 milyon TL olan layihənin 21 ay (630 gün) müddətində həyata keçirilməsi nəzərdə tutulub. 140 km-ə yaxın müxtəlif ölçülü borulardan ibarət kanalizasiya şəbəkəsi ilə, 16 km uzunluğunda boru xəttindən ibarət olan şimal kollektoru və 22 km uzunluğunda borudan təşkil olunacaq cənub kollektorunun inşasını nəzərdə tutan layihənin icrası üçün hazırlıq işlərinə artıq start verilib.

# ÇAP REKLAMI



Çap reklamı reklam müraciətlərinin yayılmasının əsas komponentlərindən biridir. Çap reklamı kommersiya məlumatlarının yayılmasının ən keçmiş növlərindəndir. Çap reklamı müstəsna olaraq görmə qavrayışı üçün nəzərdə tutulan reklamın əsas vasitələrindən biridir. Çap reklamı dedikdə çox zaman qəzet və jurnallarda informasiyanın yerləşməsi başa düşülür. Hazırda çap reklamına korporativ jurnallar və qəzetlər, flayerlər (ing. flier - bir qayda olaraq güzəşt hüququ verən kiçik reklam vərəqləridir), vərəqlər, reklam broşüraları, təqvimlər, sorğu kitabçaları, kataloqlar, vizitkalar, plakatlar daxildir.

Çap reklam materiallarını iki əsas qrupa bölmək olar: reklam-kataloq nəşrləri və Yeni il hədiyyəli reklam nəşrləri.

Reklam kataloq nəşrləri əmtəə, məhsul və xidmətlərin konkret növlərini reklam edir.

**Kataloq** (yunanca "katalaqos" – ümumi halda hər hansı bir əlamətə görə obyektlərin axtarışını yüngülləşdirmək məqsədilə tərtib olunan informasiyanın siyahısıdır) böyük sayda əmtəələrin sistemləşdirilmiş siyahısını əks etdirən, müəyyən qaydada tərtib olunan, əmtəələrin şəkli verilən, mətn hissəsində, bir qayda olaraq, əvvəldə məhsulu hazırlayan müəssisə haqqında kiçik giriş məqaləsi, sonra texniki xarakteristikalarla təqvim olunan əmtəələrinin geniş təsvirini verən, kitab şəklində bağlanmış və ya cildlənmiş çap nəşridir.

**Prospekt** (latınca "prospektus" – gələcəyin görünüşü, inkişafın görünüşü, gələcəyin layihələndirilməsi, layihənin perspektividir) hər hansı bir konkret əmtəə və ya əmtəələr qrupu haqqında informasiya verən, kitab şəklində bağlanmış və ya cildlənmiş çap nəşridir. Özündə təqvim olunan əmtəələrin ətraflı təsvirini əks etdirir və yaxşı şəkildə əhatə olunmuşdur. Kataloqdan fərqli olaraq həcmi azdır, parlaq ifadə edilmiş yubiley və ya nüfuzlu xarakter daşıya (müəssisənin tarixi yolunu, onun əhəmiyyətini və s. ətraflı təsvir edə) bilər.

**Buklet** (ing. "booklet" – xarici görünüşcə broşüraya oxşayır, lakin daha mürəkkəb konstruksiyaya və dizayna malik reklam poliqrafiyası üçün xarakterik olan çap məhsulu növüdür) kataloqdan və prospektdən fərqli olaraq, kitab şəklində bağlanmamış, lakin çoxsaylı qatlanmış, yaxud bükülmüş nəşrdir. Müxtəlif ölçülərə, həcmə və qatlanmış variantlara malikdir, lakin açılmış vəziyyətdə onun ölçüsü standart mətbu çap vərəqinin ölçüsündən çox ola bilməz. Böyük tirajla hazırlanan və qısa müddətli istifadə üçün nəzərdə tutulan ucuz və qənaətcil nəşrdir.

**Plakat** (alman. "plakat", frans. "placard", "elan", "afişe" və "plaquer" – "yapışdırmaq" deməkdir və kəskin, bir qayda olaraq, iri formatlı təsvirdir, qısa mətnlə müşayiət olunur, təşviqat, reklam, informasiya və ya tədris məqsədilə edilir) əksər hallarda bir tərəfli möhürlə iri formatlı qatlanmamış nəşrdir. Böyük şəkil və ya fotoşəkil, iri reklam sərlövhəsi - sloqanı ilə müşayiət olunur və bu reklam olunan əmtəənin və ya xidmətin əsas xüsusiyyətlərini obrazlı və qısaldılmış formada əks etdirir. Funksionallığın yüksəldilməsi üçün çox zaman plakata təq-vim cədvəli daxil edilir.

Son zamanlar reklam buklet - plakatlardan uğurla istifadə olunur, plakatın əks tərəfində reklam edilən məhsulun müfəssəl təsviri verilir.

**Vərəqə** (siyasi təşviqat və ya informasiya ədəbiyyatı növüdür) qənaətcil və böyük tirajla əlaqədar buraxılan azformatlı, qatlanmamış və ya bir dəfə qatlanmış nəşrdir. Adətən, vərəqdə ətraflı texniki təsvirlə və xarakteristikalarla əhatə olunmuş reklam edilən məmulatların bir və ya iki şəkli əks olunur.

Bütün reklam kataloq materiallarının bədii tərtibatında sifarişçi təşkilatın firma rəmzlərinin müxtəlif elementləri iri planda ayrılır, onun poçt ünvanı, teleks, telefaks, telefon nömrəsi və s. göstərilir.

Yeni il reklam hədiyyə nəşrləri çap reklam maretiallarının ən səmərəli növüdür, belə ki, həddən artıq yüksək nüfuzedici qabiliyyətə malikdir.

Firma divar və stolüstü təqvimlərdə, işgüzar gündəliklərdə, "altıgünlüklərdə" və qeyd dəftərçələrində təqdim olunan əmtəə və xidmətlər haqqında informasiyaların yerləşdirilməsi üçün xüsusi reklam zolaqları aparılmışdır. Bu nəşrlərin üz qabığında və təqvim zolağının (səhifəsinin) tərtib edilməsində sifarişçi təşkilatın firma rəmzlərindən geniş istifadə olunur.

**Çib tabel təqvimləri.** Reklam sərlövhəsi ilə ( plakatlara oxşar), nomenklatura xarakterli sujet şəkillərlə verilə bilər. Əks tərəfdə təqvim cədvəli ilə birlikdə sifarişçinin firma rəmzi də olmalıdır.

Plakatlardan sərgi stendlərinin, ticarət və nümayiş zallarının, xidməti binaların (ofislərin) interyerlərinin, qəbul otaqlarının, danışıqlar üçün otaqların tərtib edilməsi üçün istifadə olunur, xüsusi reklam tumbalarında (yolun, ya səkinin yanında dirəkcik, sütuncuq) və ya lövhələrdə və s. asılır. Çap reklam materiallarından işgüzar görüşlərin və kommersiya danışıqlarının gedişində də istifadə olunur, müxtəlif yarmarkalarda və sərgilərdə yayılır. Yeni il reklam hədiyyə nəşrləri həm şəxsi işgüzar əlaqələrin, həm də təbrik açıqcalarının və vizit kartlarının qoyulması ilə poçt göndərişlərinin gedişində yayılır.

Çap reklamının hazırlanması (bunun üçün həmçinin "kommersiya reklamı ədəbiyyatı" terminindən də ustifadə olunur) reklam vasitəsinə daxil olmaq üçün zəruri olan məlumatların toplusunu tələb edir.

*(davamı var)*

*F.M.Qarayev,*
*BDU-nun dosenti*

# AGBank-da növbədənkənar keçirilən iclasın nəticələri

Martın 4-də "AGBank"ın səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçirilib. Yığıncağın gündəmində bankın nizamnamə kapitalının artırılması müzakirə olunub. Nəticə olaraq nizamnamə kapitalının 100 milyon manat artırılması qərara alınıb. Xatırladaq ki, "AGBank" ASC 1992-ci ildə təsis edilib. Bankın fəaliyyəti əsasən Azərbaycanda istehsalat və ticarət sektorlarının maliyyələşdirilməsinə yönəlib.




Bununla yanaşı, onun xidmətlərindən minlərlə fərdi müştəri də yararlanır. "AGBank"ın səhmdarları arasında iki böyük təşkilat - Beynəlxalq Maliyyə Korporasiyası və Kazimir İnvestment LTD Amerika Sərmayə Fondu var. Bank həmçinin Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Beynəlxalq İnkişaf naminə OPEK Fondu (BİF OPEK), Rayfayzen Bank, Asiya İnkişaf Bankı, ŞekerBank, Beynəlxalq Maliyyə Korporasiyası, Kommertsbank AG, Alman-Azərbaycan Fondu (AAF), LBBW, UniKredit, Standart Çartered Bank Qrup kimi beynəlxalq maliyyə təsisatları ilə əməkdaşlıq edir.Bundan başqa, "AGBank" Sahibkarlığa Kömək Milli Fondu və Azərbaycan İpoteka Fondunun tərəfdaşı, "MasterCard International" və "VISA International" beynəlxalq ödəmə sistemlərinin, Western Union, Contact, Blizko, Lider, UPT, İBA-EXPRESS, Caspian Money Transfer və MONEX kimi təcili pul köçürmələri sistemlərinin üzvü, SWIFT ödəmə sisteminin iştirakçısıdır.

iDEAL DiZAYN
Daimi tərəfdaşınız



Ofis mebeli və layihələr

– Metal dolablar
– Metal stellaj sistemi
– Metal tumbalar
– Metal seyflər
– Metal masalar

Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az

# iPhone əldə etmək üçün əla fürsət




**Azercell Telekom Novruz bayramı ərəfəsində abunəçiləri üçün yeni kampaniyaya başlayıb.**

7 mart tarixindən etibarən fiziki statusa malik olan bütün fakturalı xətt abunəçiləri xüsusi "Bahar" kampaniyasından yararlana biləcəklər. Kampaniya çərçivəsində bütün mövcud və Azercell şəbəkəsinə MND ilə keçən fakturalı xətt abunəçiləri, Azercell diler şəbəkələrindən və Azercell Ekspress Ofislərindən güzəştli şərtlərlə "Hədsiz", "Hədsiz Zəng" və ya "Hədsiz İnternet" tariflərinə qoşulub iPhone 6s (16 GB) və iPhone 6s (64 GB) əldə edə bilərlər. Abunəçi kampaniya çərçivəsində iPhone 6s (16 GB) və iPhone 6s (64 GB) telefonları əldə etdikdə, 12/24 faktura dövrü ərzində müvafiq olaraq aylıq abunə haqqı odəməli olacaq.

Nəzərinizə çatdıraq ki, kampaniyaya qoşulma dərhal baş verir və "Hədsiz", "Hədsiz Zəng" və "Hədsiz İnternet" tarif paketləri növbəti gündən aktivləşdirilir. "Hədsiz Zəng" tarif paketinə qoşulan abunəçilərə bu kampaniyaya qoşulma müqabilində ilk 2 faktura dövrü ərzində 1GB aylıq internet paketi müştəri tərəfindən sifariş etdikdə 2 dəfə pulsuz təqdim olunacaq. Onu da qeyd edək ki, bu tariflərə qoşulmaqla abunəçilər paket daxilində xüsusi bonus və endirimlər alırlar. Abunəçi kampaniyaya yalnız öz nömrəsi ilə qoşula bilər. Bir abunəçi kampaniya çərçivəsində yalnız bir telefon əldə edə bilər. Abunəçilər kampaniyadan yararlanmaq üçün istənilən AZEX/MX ofislərinə müraciət edə bilərlər.

Azercell bu bahar 4,5 milyonluq abunəçi ailəsini yeni kampaniyalar və xidmətlər ilə sevindirməkdə davam edəcək.

| Tarif paketinin adı | iPhone 6s 16GB ilə bağlı 12 Faktura dövrü ərzində ödənilən cihaz haqqı (ƏDV daxil) | iPhone 6s 64GB ilə bağlı 12 Faktura dövrü ərzində ödənilən cıhaz haqqı (ƏDV daxil) |
|---|---|---|
| Hedsiz | 179 AZN | 199 AZN |
| Hedsiz Zəng | 159 AZN | 179 AZN |
| Hedsiz İnternet | 149 AZN | 169 AZN |
| | iPhone 6s 16GB ilə bağlı 24 Faktura dövrü ərzində ödənilən cıhaz haqqı (ƏDV daxil) | iPhone 6s 64GB ilə bağlı 24 Faktura dövrü ərzində ödənilən cıhaz haqqı (ƏDV daxil) |
| Hedsiz | 119 AZN | 129 AZN |
| Hedsiz Zəng | 99 AZN | 109 AZN |
| Hedsiz İnternet | 89 AZN | 99 AZN |

# Gənc OL tarif paketi ilə artıq 55 məkanda 50%-ə qədər endirim




Azercell-in populyar Gənc OL tarif paketində sərfəli endirimlər və kampaniyalar davam etməkdədir. İndi Gənc OL tarif paketinə qoşulan abunəçilər daha 21 məkanda (restoranlar, mağazalar, fitnes, Təhsil, Əyləncə mərkəzləri və s.) 50%-ə qədər müxtəlif endirimlərdən yararlanmaq imkanı qazanırlar.

Ümumilikdə isə, abunəçilər 55 fərqli məkanda müxtəlif endirimlərdən istifadə edə bilərlər. Gənc OL tarif paketində olan bütün endirimlər barədə daha ətraflı http://www.gencol.az/az/təkliflər-linki vasitəsilə tanış olmaq olar.




Bu endirimlərdən yararlanmaq üçün abunəçi 7070 qısa nomrəsinə SMS göndərməli və ya www.gencol.az portalına daxil olub, orda qeydiyyatdan keçməlidir. Onu da qeyd edək ki, bütün Azercell abunəçiləri Genc OL portalına mobil telefon üzərindən pulsuz daxil ola bilirlər.

Azercell-in qeyd olunan paketinə qoşulmaq üçün isə SimSim abunəçiləri G5 və ya G8 açar sözünü 7575-ə göndərməlidirlər. Gənc OL tarif paketinə qoşulmaqla abunəçilər sərfəli tarifdən yararlana, müxtəlif endirimlər və kampaniyalardan faydalana bilər. Belə ki, ayda cəmi 5 AZN ödəyib GəncOL5 tarif paketinə qoşulmaqla hər kəs Gənc OL abunəçiləri arasında hər ay 2GB İnternet, 200 dəq, 200 SMS-dən yararlanmaq imkanı qazanır. Bu paketin daha bir üstünlüyü isə ondan ibarətdir ki, aylıq paketdəki danışıq bitəndən sonra Gənc OL abunəçiləri öz aralarında cəmi 2 qəpiyə, digər abunələrlə ölkədaxili 5 qəpiyə danışacaqlar. Gənc OL 8 paketi də abunəçilərə sərfəli danışıq təklif edir. Belə ki, bu tarifdə abunəçilər öz aralarında 4 GB Mobil İnternet, 400 dəq tarifdaxili və 400 SMS-dən istifadə etmək imkanı qazanır.

Qeyd edək ki, Genc OL endirimlərinin sayı artmaqda davam edir.

# 30,2 mindən çox sahibkar SKMF-nin xətti ilə kredit alıb



1992-2016-cı illərdə Azərbaycanda Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) xətti ilə sahibkarlara 1 mlrd. 759 mln. 6,15 min manat güzəştli kredit verilib. Bu barədə fondun saytında məlumat verilir.

Bu günə qədər 30,204 min sahibkar fonddan güzəştli kredit alıb.

SKMF 1992-ci ildə yaradılıb. Sahibkarlara kreditlərin verilməsi 60 bank və qeyri-bank kredit təşkilatı vasitəsilə həyata keçirilir. 2015-ci ildə fondun xətti ilə sahibkarlara 248,5 mln. manat məbləğində güzəştli kredit verilib. 2016-cı ildə bu məbləğ 250 mln. manat təşkil edəcək.

**Etibarsızdır**

Hacıyeva Nayibə Umudəli qızına məxsus olan Xəzər rayonu Mərdəkan qəsəbəsində yerləşən 1219 saylı bağ sahəsinə verilmiş qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

"İqtisadiyyat" qəzetinin kollektivi Azərbaycan Dövlət İqtisad Universitetinin Biznesin idarə olunması kafedrasının müdiri Məhəmməd Əliyevə atası

**ƏLƏKBƏR ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN**

Təsisçi:
akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
*Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Ədalət Muradov, Elşad Səmədzadə, Müşfiq Atakişiyev, Mirdamət Sadıqov, Mehriban Alışanova, Xanhüseyn Kazımlı, Məhiş Əhmədov, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Cahangir Qocayev.*

Kompyuter mərkəzinin direktoru:
Oqtay ORUCLU
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 *(fax)*
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
"İQTİSADİYYAT" qəzetinin kompyuter mərkəzində yığılmış və səhifələnmiş, "Zaman-Azər" MMC firmasının mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 İndeks: 0355 Tiraj: 3400